# COP29 çərçivəsində liderlər sammiti keçiriləcək




**COP29 çərçivəsində 12–13 noyabrda liderlər sammitinin təşkil olunması nəzərdə tutulub. Bu barədə ekologiya və təbii sərvətlər nazirinin müşaviri Rüstəm Həsənov Bakıda keçirilən beynəlxalq "Hüquq və iqlim" konfransında bildirib. Nazirlik sözçüsünün sözlərinə görə, COP tədbirləri zamanı müzakirələrin daha effektiv təşkil olunması üçün tematik deyilən günlərdən istifadə olunur. Bu il də 7 tematik günün müəyyən olunduğunu diqqətə çatdıran müşavir deyib ki, COP29 zamanı keçiriləcək bütün tədbirlər, məsləhətləşmələr və danışıqlar həmin günlərdə müvafiq qaydada qruplaşdırılacaq.**

R.Həsənov COP-un BMT-nin Baş Assambleyasından sonra ən çox dövlət və hökumət başçısının qatıldığı tədbir olduğunu və mahiyyət etibarilə bütün dünya ictimaiyyətinin diqqətini cəlb etdiyini vurğulayıb. COP29 sədrliyi tərəfindən 14 əsas təşəbbüsün irəli sürüldüyünü diqqətə çatdıran müşavir deyib ki, onların müəyyən olunması zamanı dünya ictimaiyyətinin Azərbaycan gözləntiləri nəzərə alınıb və aktual problemlərə diqqətə yetirilib: "Builki COP-un əsas mövsuzu iqlim maliyyələşməsinin təmin olunmasıdır. Əgər bir mövzuda maliyyə varsa, iki tərəf formalaşır: maliyyəni verən və qəbul edən tərəf. Həmin tərəflər fikir ayrılığında olsalar da onları adətən bir mövzu birləşdirir ki, bu da həmin proseslərin şəffaf olmasıdır. İqlim maliyyəsi deyəndə onun şəffaf mexanizmlər əsasında tərəflər arasında bölünməsi və maliyyə resurslarının cəlb edilməsi nəzərdə tutulur. Bu, bizim COP sədrliyinin öndə gələn vəzifələrindən biridir".

Şəffaflıq prinsipini artırmaq üçün "Bakı qlobal iqlim şəffaflığı platforması"nın təsis edildiyini bildirən R. Həsənov deyib ki, sənəd çərçivəsində kommersiya tərəfi olan ölkələr təşviq olunur ki, bundan da məqsəd bu il noyabrda keçiriləcək 29-cu sessiyaya kimi şəffaflıq hesabatlarının təqdim edilməsinə nail olmaqdır: "Bununla bağlı bütün tərəflərlə danışıqlar aparılır. Ən əsası BMT Baş Assambleyasının Nyu-Yorkda keçiriləcək 79-cu sessiyasında da tərəfləri bir daha bu məsələyə diqqətlə yanaşmağa səsləyəcəyik", – deyə o əlavə edib.

Xalq qəzeti .- 2024.- 11 sentyabr (№197).- S.8.